# AŞIQ ƏLƏSGƏR POEZİYASINDA DAĞ OBRAZI

**Samirə Əmrahova**, **Elnarə Həsənova**

*Göytəpə şəhər 1 nömrəli məktəb*
*amire.amrahova@gmail.com, elnarahasanova01@gmail.com*

Dağlar öz qüdrəti, əzəməti və yenilməzliyi ilə hər zaman insanları cəlb etmişdir. Dağlar təbiət qanunlarının, təbiətin əbədiliyinin və gözəlliyinin dəyişməzliyinin təcəssümü idi.

Dağlar minilliklər boyunca sarsılmaz və dəyişilməz bir obraz kimi qəbul olunub. İnsanlar onları digər təbiət ünsürləri kimi (çaylar, meşələr və s.) müqəddəsləşdirmiş və xüsusi hörmət və ehtiramla yanaşmışlar.

Ümumiyyətlə, dağ inamının kökü çox qədim dövrlərə gedir. "Bilqamıs" dastanından məlum olur ki, şumerlərdə çətinliyə düşən, yolunu müəyyən etməyi bacarmayan şəxs çıxış yolunu dağdan diləyir. Dağ kultu ilə bağlı olaraq "Bilqamıs"–"Dədə Qorqud" paralellərinə rast gəlirik. Şumer–Dədə Qorqud paralelləri ilə bərabər, dağ inamının günümüzdə də bir sıra türk xalqlarında qorunub saxlandığı məlumdur. Həmin inanclar genetik cəhətdən eynilik təşkil edir. Qədim türklər Tanrı dağları – Tyan-Şanı müqəddəs hesab etmişlər. Qədim türklərdə hər boyun, hər elin özünəməxsus müqəddəs dağı var idi. Yəni həmin dağa ziyarətə ancaq məxsus olduğu boyun adamları gəlirdi.

Dağ obrazı türk xalqlarının, o cümlədən də Azərbaycan xalqının etnik-mədəni dəyərlər sistemində mühüm mövqeyə malikdir və türklərin sığındığı ilkin təbiət varlıqlarından biridir. Mustafa Baş qeyd edir ki, "böyük dağlar, türk mifolojisinde de en önemli motiflerdir... Zirveleri gökleri deler gibi yükselen ve başları bulutlar içinde kaybolan dağlar Tanrı ile konuşur ve ilgi kurar gibi görünmüşlerdir. Gögün diregi dağ, yeri bastıran dağ ve Tanrıya giden en yakın yol da yine dağ idi. Kurbanlar yüksek dağ tepelerinde kesilmiş, toplumda ün kazanmış saygı duyulan kimselerin mezarları yüksek dağ başlarında yapılmıştır" (2, 172).

M.Özdemir yazır: "Oğuzlardan itibaren Türkler dağların güzelliğine tutkundurlar. Dağların üzerine ya da yakınlarına kurulan yayla ve obalar Türklerin doğal yaşam alanları arasındadır. Bu dağların suları da onlar için ayrıca mukaddestir. Bütün milletlerde olduğu gibi Türklerde de dağ kültü inanışı vardır. Kutadgu Bilig'e göre dağlara ulaşmak başlı başına bir olgunluk göstergesidir. Ünver Günay ve Harun Güngör "Başlangıcından Günümüze Türklerin Dini Tarihi" isimli eserinde Türklerde dağ kültünün Gök Tanrı inancıyla ilgili olduğunu belirterek dağların göğe yakınlığı sebebiyle kutsal kabul edildiğinin ve Tanrı makamı olduğunun altını çizerler. Türk tarihi boyunca dağa atfedilen önemin izlerine Türk varlığının hüküm sürdüğü bütün coğrafya ve uygarlıklarda rastlamak mümkündür. Göktürklerin merkezi

konumundaki Ötüken, aynı zamanda kutlu bir dağdır. Oğuzlarda dağların ruhları olduğuna inanılmıştır. Dağlara ata, baba gibi isimler verilerek dağların kişileştirildiği örnekler çoktur. Oğuzlar, dağlarla konuşurlar, dağlara dua ve beddua ederler, dağların yaşlanıp yıkılmasından korkarlar, dağlardan esenlik dileyip geçit vermesini isterler. Yine dağlarla ilgili şifa dileme, yemin etme, selam verme ve b. gibi pek çok uygulama görülür" (3).

Ə.Tanrıverdinin araşdırmasına əsasən, oğuz türk soyunun mədəniyyət abidəsi olan "Dədə Qorqud Kitabı"nda dağ tanrı, uğur, yurdun dayağı, böyük hədiyyə, oğuz qəhrəmanının cəsurluğunun, igidliyinin göstəricisi kimi əks etdirilir (4, 99-102).

Müqəddəs dağlar və mağaralar səmavi dinlərdə də mövcuddur. Hz. Peyğəmbərimizə (s.ə.v.) ilk vəhy Hira dağında gəlmişdir. O, təqiblərdən Sivr mağarasına sığınmaqla xilas olmuşdur. Allahın hökmü ilə mağaranın girəcəyini hörümçək öz toru ilə tutmuş, girişdə göyərçin bala çıxarmışdır. Hz. Musa (ə.s.) peyğəmbərə vəhyin Turu-Sinada gəldiyi məlumdur. Hz. İbrahim (ə.s.) peyğəmbərin Hz. İsmayılı (ə.s.) qurban kəsmə mərasimi də dağda – Mina dağında baş verib. Bu onu göstərir ki, islam dinində dağlar Allahın izni ilə insanların ona yaxınlaşa biləcəyi bir məkandır.

Dağ obrazı Azərbaycan folklorunun həm janr, həm də mövzu və obraz baxımından ənənələrini davam etdirən, lakin konkret müəllifliyi ilə seçilən aşıq ədəbiyyatında da poetik obrazlar sırasında geniş yer almışdır. Buna nümunə kimi Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin poeziyasını göstərmək olar.

Aşıq Ələsgər özündən əvvəlki ustad aşıqların ənənələrini davam və inkişaf etdirərək, qoşma, gəraylı, təcnisləri, eləcə də yaratdığı yeni aşıq şeiri janrlarından ibarət bədii irsi ilə şifahi söz sənətimizi zənginləşdirmiş, yüksək zirvəyə qaldırmışdır. Ustadın yaradıcılığında lirik motivlə əxlaqi-didaktik motiv üzvi formada sintez etmişdi, xalqın tarixi yaddaşında həkk olmuş obrazlar yeni çalarlarla tamamlanmışdı.

Aşıq Ələsgər Göyçə mahalının Ağkilsə kəndində anadan olmuş, burada boya-başa çatmış və uzun, maraqlı, keçməkeşli həyat yolunu elə buradaca yekunlaşdırmışdı. Bu baxımdan Aşıq Ələsgər yaradıcılığının doğma diyarın təbiəti ilə sıx bağlılığı qanunauyğundur. "Şah dağı", "Yaylaq", "Gördüm", "Dağlar" rədifli qoşmaları aşığın vətənpərvərliyini, xalqının adət-ənənələrinə, milli və dini düşüncələrinə sadiq olduğunu, doğma diyarının təbiətini təkcə coğrafi bir anlayış qismində deyil, bədiiləşmiş obraz kimi qəbul etdiyini sübut edir.

Dağ obrazı söz ustadının xüsusi diqqət yetirdiyi təbiət obrazlarından biridir. Aşıq "Dağlar" rədifli iki qoşma yaratmışdır. Birinci əsər nikbin ovqatı ilə nəzəri cəlb edir. Ustad bu şeirdə dağları çoxşaxəli bədii obraz kimi təsvir etmişdir. Dağlar həm təbiətin gözəl mənzərəli bir hissəsi kimi (Bahar fəsli, yaz ayları gələndə Süsənli, sünbüllü, lalalı dağlar), həm insan şəxsiyyətinin dəyər ölçüsü kimi (Yoxsulu, ərbabı, şahı, gədanı Tutmaz bir-birindən alalı dağlar), həm də "Dədə Qorqud Kitabı"ndakı dərdlərə dərman olan, həyat verən varlıq kimi ("Xəstə üçün təpəsində qar olur, Hər cür çiçək açır, ləlzar olur, Çeşməsindən Abi-Həyat car olur, Dağıdır möhnəti, məlalı dağlar") tərənnüm edilir. Dağ dağıdıcı qüvvə olmaqla yanaşı, mərhəmət, qüdrət, əzəmət və vüqarlılıq rəmzidir: "Gahdan qeyzə gələr, nahaq qan eylər, Dinşəməz haramı, halalı dağlar…".

Dağların gözəlliyi insanlar üçündir, insanlar olmasa, dağların gözəlliyi də solar. İnsanın dərdini, naləsini sakitləşdirən məkandır dağlar: "Köçər ellər, düşər səndən aralı, Firqətindən gül-nərgizin saralı".

İkinci "Dağlar" şeirini Aşıq Ələsgər iyirminci əsrin əvvəllərində yaratmışdır. Əsərdə ikiillik məcburi ayrılıqdan sonra doğma yurduna qayıdan ustad gördüyü mənzərədən kədərə dalaraq öz düşüncələrini dağlarla bölüşür, onu narahat edən sualların cavabını dağlardan eşitmək istəyir. Aşıq Ələsgər qoşmanın hər bəndində dağlarla bağlı yeni bir fikir deyir, qəlbindən keçənləri səmimi bir dillə ifadə edir. Təbiət vurğunu olan aşıq dağlarla insanı vəhdətdə götürür. Qaçqın, köçkün vəziyyətinə düşən insanlar kimi, dağların da məlul görkəm alması aşığın diqqətindən yayınmır, şeirdə real, həyati lövhə kimi təqdim olunur: "Hanı mən gördüyüm qurğu-büsatlar?! Dərdməndlər görsə, tez bağrı çatlar; Mələşmir sürülər, kişnəşmir atlar".

Qoşmada aşıq Azərbaycanın ğözəl dağları – Kəpəz, Murov, Qonur, Dəli Qoşqar, Sarınər, Qısır Murğuz, Şahdağının adlarını qürurla çəkir. Yan-yana duran Həsənnənə, Həsənbaba dağ adları isə türklərin dağların adlarına qohumluq bildirən sözləri qoşmaqla onları canlandırdıqlarını bir daha göstərir.

Aşığın fikrincə, vətənin ucalığının, əzəmətinin, gözəlliyinin rəmzi olan dağların bu vəziyyəti elin igid, qeyrətli övladları üçün ibrət dərsi olmalıdır. Vətənə layiq övlad olmaq, onun torpağının hər qarışını qorumaq, dağlarının, düzlərinin qədrini bilmək hamının borcudur: "Arsız aşıq elsiz niyə yaşadı?! Ölsün Ələsgər tək qulların, dağlar!"

Göründüyü kimi, xalq ozanı Aşıq Ələsgər poeziyasında dağlar obrazı vətən təbiətinin gözəlliyini, onun misilsiz zənginliyini poetik sözün bütün əzəməti, onun bənzərsiz rəngləri və incə çalarları ilə təsvir və tərənnüm etmişdir. Aşıq Ələsgər xalqdan öyrənən və xalqa öyrədən sənətkarlardandır. O, el ədəbiyyatından, zəngin xalq yaradıcılığından çox şey götürmüş və ona çox şey də əlavə etmişdir. Aşığın poeziyasında dağlar təkcə geniş təbiət mənzərəsi deyil, o cümlədən də insana aid mənəvi dəyərlərin simvoludur.

Aşıq Ələsgərin bizə gəlib çatan irsi zəngin bir irsdir. Bu böyük poeziyada insan və onun mənəvi gözəllikləri, xalq həyatı və məişətinin konkret bədii səhnələri, vətənin təbiəti, xalqın adət və ənənələri zəngin boyalarla əks olunmuşdur. Özünün əxlaqı, xasiyyəti, davranışı ilə hamıya nümunə olan, yaratdığı şeirlərdə dinləyənlərə düzgün yol göstərən, ədalətli olmağı, haqqın tərəfini saxlamağı təbliğ edən aşıq bütün bunlara görə "Haqq aşığı" adlandırılmış, həmişə ona pərəstiş elənmiş, çətin işə düşənlərsə ondan nicat diləmiş, vəfatından sonra qəbrini ziyarətgaha çevirmişlər. Onun yaradıcılığının bədii keyfiyyətləri, sənətkarlığı, bədii dili və obrazlı ifadələri bişmiş, bitkin, bütöv və gözəldir. Bu mənada, aşığın təbiət mövzusundakı şeirlərini oxuyarkən gözlərimiz qarşısında aydın bir səma, parça-parça mavi buludlar, nəhəng xalını xatırladan çəmənlər, çağlayan şəlalələr, durnagözlü bulaqlar və şairə qarşı böyük bir sevgi, kövrək bir məhəbbət oyanır.

**Ədəbiyyat:**

1. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.

2. Baş M. Dinlerde ve Geneksal Türk İnanışlarında Dağ Kültü, s. 172.

3. M.Özdemir. Türk Kültüründe Dağ Kültü ve Bir Yüce Dağ: Halbaba. https://dergipark.org.tr› download› article-file

4. Ə.Tanrıverdi. "Dədə Qorqud Kitabı"nda dağ kultu. Bakl, 2013.